# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI

## “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun auditor xidməti göstərən şəxslər qarşısında yaratdığı öhdəliklərin yerinə yetirilməsi istiqamətində auditorların fəaliyyətlərinə Azərbaycan Respublikasının Auditorlar Palatasının öz səlahiyyətləri çərçivəsində nəzarətin təşkili üzrə
## METODİK GÖSTƏRİŞ

*(Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının*
*2023-cü il 14 dekabr tarixli*
*361/10 nömrəli qərarı ilə bəyənilmişdir)*


***İcraçılar:***

*Auditin hüquqi tənzimlənməsi və*
*dövlət orqanları ilə iş idarəsinin rəisi* — *Elnur İbrahimov*

*Auditorlar Palatası sədrinin*
*elmi-metodik məsələlər üzrə müşaviri* — *Nəcəf Talıbov*

*Auditin hüquqi tənzimlənməsi və*
*dövlət orqanları ilə iş idarəsinin rəis müavini* — *Bəhruzə Qasımova*



**Bakı - 2023-cü il**

**“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun auditor xidməti göstərən şəxslər qarşısında yaratdığı öhdəliklərin yerinə yetirilməsi istiqamətində auditorların fəaliyyətlərinə Azərbaycan Respublikasının Auditorlar Palatasının öz səlahiyyətləri çərçivəsində nəzarətin təşkili üzrə**

# METODİK GÖSTƏRİŞ

## I. Giriş

Bu “Metodik göstəriş” “Auditor xidməti haqqında”, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Hədəfli Maliyyə Sanksiyaları haqqında” Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə, Azərbaycan Respublikasının Nazirlər Kabineti və Maliyyə Monitorinqi Xidməti tərəfindən qəbul edilmiş normativ hüquqi aktlar, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli 3770 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı”na, Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin 2023-cü il 28 mart tarixli 1/10 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Auditorlar Palatasının “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-cü il üzrə İş Planı”na, Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin 2023-cü il 14 sentyabr tarixli 1/19 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Auditorlar Palatasının “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2024-cü il üzrə İş Planı”na, digər qanunvericilik aktlarına, Azərbaycan Respublikasının Auditorlar Palatası və Maliyyə Monitorinqi Xidməti arasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində əməkdaşlığa dair memoranduma, “Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi”nin (Beynəlxalq Müstəqillik Standartları ilə Birlikdə) müddəalarına uyğun olaraq hazırlanmışdır.

“Metodik göstəriş” Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiyaların məzmunundan irəli gələn öhdəliklərə, Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik materiallar Toplusu”na (2010-2020-ci illər) dəyişikliklər edilməsi barədə” 2023-cü il 03 mart tarixli 1/8 nömrəli sərəncamının, auditor xidmətini tənzimləyən normativ hüquqi aktların və digər qanunvericilik aktlarının müddəalarına uyğun olaraq, təsərrüfat subyektlərinin fəaliyyətində şəffaflığın təmin olunması, qeyri-qanuni yolla əldə edilmiş gəlirlərin leqallaşdırılmasına qarşı mübarizə işinə yardım göstərəcəkdir.

## II. Metodik göstərişin məqsədi

“Metodik göstəriş”in əsas məqsədi Azərbaycan Respublikasının ərazisində auditor xidməti göstərən şəxslər tərəfindən ölkəmizin qanunvericilik aktlarına, Beynəlxalq Audit Standartlarına, “Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi”nə (Beynəlxalq Müstəqillik Standartları ilə Birlikdə) uyğun olaraq peşə etikası qayda və normalarına riayət edilməsi üzrə tədbirlərin həyata keçirilməsindən, auditor xidmətlərinin göstərilməsi zamanı yol verilmiş nöqsan və çatışmazlıqların ardan qaldırılmasından, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Hədəfli Maliyyə Sanksiyaları haqqında” Azərbaycan Respublikası qanunlarının auditor xidməti göstərən şəxslər qarşısında yaratdığı öhdəliklərin yerinə yetirilməsi istiqamətində auditorların fəaliyyətlərinə Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən nəzarətin gücləndirilməsi,

bununla bağlı auditorların fəaliyyətinə nəzarəti həyata keçirmək məqsədilə monitorinq aparmaq, monitorinqin nəticələri üzrə zəruri tədbirlər görməkdən ibarətdir.

"Metodik göstəriş" Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən auditorların fəaliyyətinin "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında", "Hədəfli Maliyyə Sanksiyaları haqqında", "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının qanunlarına və digər normativ hüquqi aktlardan irəli gələn tələblərə uyğunluğunun və onların göstərdikləri auditor xidmətlərinin keyfiyyətinin Palata tərəfindən yoxlanılmasının və bu sahədə nəzarətin əsas istiqamətlərini müəyyən edir.

"Metodik göstəriş" cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və ya terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı əməllərin aşkar edilməsi və qarşısının alınması məqsədilə əmlakla əməliyyat həyata keçirən Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, hüquqi şəxslər, xarici hüquqi təsisatlar, habelə Azərbaycan Respublikasının ərazisində əmlakla əməliyyatların aparılması ilə bağlı auditor xidməti göstərən şəxslər tərəfindən görüləcək işləri tənzimləyir.

"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanunu cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqədar olan və Azərbaycan Respublikasının yurisdiksiyasından kənarda həyata keçirilən fəaliyyətə münasibətdə Azərbaycan Respublikasının götürdüyü beynəlxalq öhdəliklərə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun qaydada tətbiq olunur.

## III. Metodik göstərişin istifadəçiləri

"Metodik göstəriş" "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə auditor sahəsində fəaliyyət göstərən şəxslər üçün müəyyən olunmuş öhdəliklərin auditor xidməti göstərən şəxslər tərəfindən dürüst yerinə yetirilməsinin monitorinqini aparacaq Auditorlar Palatasının müvafiq struktur bölməsi və əməkdaşları, habelə auditor fəaliyyəti ilə məşğul olan və həmin fəaliyyətdən istifadə edən (mövcud və potensial) maraqlı tərəflərin istifadəsi üçün nəzərdə tutulmuşdur.

Metodik göstərişin müddəaları audit sahəsini tənzimləyən, ona nəzarət edən qurumlar və bu sahədə peşəkar fəaliyyət göstərən şəxslər tərəfindən tətbiq edilmək üçün nəzərdə tutulur. Bu Metodik göstərişin müddəaları Azərbaycan Respublikasında dövlət qeydiyyatından keçmiş məcburi auditin subyekti olan aşağıdakı hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərə auditor xidməti göstərilməsi ilə bağlı tətbiq olunur:

- kredit təşkilatları;
- sığortaçı, təkrarsığortaçı və sığorta vasitəçiləri;
- qiymətli kağızlar bazarının peşəkar iştirakçıları olan brokerlər, qiymətli kağızların idarə olunması üzrə peşəkar fəaliyyəti həyata keçirənlər;
- lizinq xidmətləri göstərən kredit təşkilatları;
- pul vəsaitlərinin köçürülməsi ilə məşğul olan poçt xidməti göstərən müəssisələr və digər təşkilatlar;
- lombardlar;
- investisiya fondları;
- qiymətli daşların, qiymətli metalların, o cümlədən qiymətli daşlardan və ya qiymətli metallardan hazırlanmış zərgərlik və ya digər məişət məmulatlarının alqı-satqısı ilə məşğul olan fiziki və ya hüquqi şəxslər;
- öz fəaliyyətinin tərkib hissəsi kimi vəsait alan, toplayan, verən və ya vəsait köçürən hər hansı qeyri-hökumət təşkilatı və ya dini təşkilat;
- lotereya təşkilatçısı;
- daşınmaz əmlakın alqı-satqısı üzrə vasitəçilik xidmətləri göstərən fiziki və ya hüquqi şəxslər.

Auditorların fəaliyyətinin Azərbaycan Respublikasının qanunvericiliyinə və normativ hüquqi aktlardan irəli gələn tələblərə uyğunluğunun və onların göstərdikləri auditor xidmətlərinin keyfiyyətinin yoxlanılması aşağıdakı istiqamətlərdə aparılır:

- auditor xidməti göstərən şəxslər tərəfindən daxili nəzarət proqramının hazırlanması və tətbiq edilməsinin yoxlanılması;
- cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər haqqında müştərinin və ya digər şəxslərin məlumatlandırılmasının qadağan olunması öhdəliyinin gözlənilməsi (iltizam alınması);
- öz müştərilərinin aşağıdakı əməliyyatlarının aparılması zamanı müştəri uyğunluğu tədbirləri ilə bağlı tələblərə auditor xidməti göstərən şəxslər tərəfindən riayət edilməsinin yoxlanılması;
- maliyyə monitorinqi orqanına məlumat vermiş auditor xidməti göstərən şəxslər tərəfindən bu barədə informasiyanın yayılmamasının yoxlanılması.

Siyahısı və ümumi məbləğinin minimal həddi (bundan sonra - limit) müəyyən edilən pul vəsaitləri və ya digər əmlakla əməliyyatlara dair məlumatlar auditor xidməti göstərən şəxslər tərəfindən maliyyə monitorinqi orqanına təqdim olunur.

Bank sirrinin və ya qanunla qorunan digər sirrin qorunması rejiminə əsaslanaraq göstərilən məlumatların (dövlət sirrini təşkil edən məlumatlar istisna olunur) maliyyə monitorinqi orqanına təqdim edilməsindən imtina oluna bilməz.

Məbləğindən asılı olmayaraq aşağıdakı əmlak, onlarla əməliyyatlar və ya belə əməliyyatların aparılmasına cəhdlər monitorinq olunur:

- auditor xidməti göstərən şəxslər xidmət göstərərkən əmlakın cinayət yolu ilə əldə edilməsi və ya terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı olmasına şübhə və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan halların aşkar olunması;
- cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasında, terrorçuluğun maliyyələşdirilməsində, transmilli mütəşəkkil cinayətkarlığı, habelə silahlı separatizmi, ekstremizmi və muzdluluğu dəstəkləməsində, narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirakı ehtimal olunan, maliyyə əməliyyatlarının aparılması zamanı müştəri uyğunluğu məlumatlarının açıqlanması tələb olunmayan dövlətlərin (ərazilərin) vətəndaşları ilə, qeydiyyat, yaşayış və ya əsas fəaliyyət yeri həmin dövlətdə (ərazidə) olan şəxslərlə, eləcə də göstərilən dövlətlərdə (ərazilərdə) qeydiyyatdan keçmiş bankda hesaba malik olan şəxslərlə əlaqədar əmlakla hər hansı əməliyyatların aşkar edilməsi.

Auditor xidməti göstərən şəxslər tərəfindən Qanunda nəzərdə tutulmuş tələblərin pozulması Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada onların lisenziyasının dayandırılması və ya ləğv edilməsinə, yaxud Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş digər tədbirlərin tətbiq edilməsinə səbəb ola bilər.

Auditor xidməti göstərən şəxslər daxili nəzarət proqramına əsasən aşağıdakı hallara diqqət yetirməlidilər:

- daşınmaz əmlakın alqı-satqısı ilə əlaqədar əməliyyatlar;
- müştərinin pul vəsaitlərinin, qiymətli kağızlarının və ya digər əmlakının idarə olunması ilə əlaqədar əməliyyatlar;
- müştərinin bank və ya qiymətli kağız hesablarının idarə olunması ilə əlaqədar əməliyyatlar;
- hüquqi şəxslərin yaradılması, onların fəaliyyətinin təmin və idarə edilməsi, bu məqsədlərlə pul vəsaitlərinin toplanmasının təşkil edilməsi, habelə hüquqi şəxslərin alqı-satqısı ilə əlaqədar əməliyyatlar zamanı auditor xidməti göstərən şəxslər.
- daxili qayda və prosedurların, nəzarət mexanizmlərinin və onların inkişaf planlarının təsdiq və tətbiq edilməsi;
- rəhbərlik səviyyəsində məsul şəxsin və məsul şəxs olmadıqda onu əvəz edən şəxsin müəyyən edilməsi də daxil olmaqla, leqallaşdırmaya və terrorçuluğa qarşı tələblərə riayət edilməsi üzrə müstəqil və effektiv sistemin təşkil edilməsi;
- işəgötürmə prosesində yüksək peşəkarlıq və vətəndaş qüsursuzluğu tələblərinin təmin edilməsi məqsədilə yoxlama prosedurlarının təsdiq və tətbiq edilməsi;

- işçilərin davamlı qaydada təlimlərə cəlb edilməsi;
- mövcud sistemin səmərəliliyini daxili audit standartları əsasında qiymətləndirən müstəqil audit mexanizminin təşkil edilməsi.

Öhdəlik daşıyan şəxslər olan maliyyə qrupları (holdinqlər) həmin qrup (holdinq) miqyasında daxili nəzarət proqramları çərçivəsində ƏL/TMM Qanununun 10.1-ci maddəsində nəzərdə tutulmuş tədbirlərə əlavə olaraq aşağıdakı tədbirlərin bütün filiallara və törəmə hüquqi şəxslərə tətbiq edilməsini təmin etməlidirlər:

- müştəri uyğunluğu tədbirləri çərçivəsində və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi risklərinin idarə edilməsi məqsədilə məlumat və sənədlərin qrupdaxili (holdinqdaxili) ötürülməsinə dair qayda və prosedurların təsdiq və tətbiq edilməsi;
- qrup (holdinq) səviyyəsində leqallaşdırmaya və terrorçuluğa qarşı tələblərə riayət, audit və bu Qanundan irəli gələn öhdəliklər çərçivəsində əsas hüquqi şəxsdən, filial və törəmə hüquqi şəxsdən müştərilər, hesablar və əməliyyatlar barədə məlumat və sənədlərin alınması qayda və prosedurlarının təsdiq və tətbiq edilməsi;
- ötürülmüş məlumat və sənədlərin konfidensiallığını və təhlükəsizliyini, eləcə də yayılmasının qarşısının alınmasını təmin edən mexanizmlərin formalaşdırılması qayda və prosedurlarının təsdiq və tətbiq edilməsi.

Maliyyə institutunun təsis edildiyi yurisdiksiya cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində maliyyə institutlarının filiallarının və törəmə hüquqi şəxslərinin yerləşdiyi xarici yurisdiksiyada mövcud olan tələblərlə müqayisədə daha sərt tələblər müəyyən edərsə, maliyyə institutları xarici yurisdiksiyanın qanunvericiliyinin imkan verdiyi çərçivədə xarici filiallarının və törəmə hüquqi şəxslərinin daha sərt tələblər əsasında fəaliyyət göstərməsini təmin etməlidir.

Əgər xarici yurisdiksiyanın qanunvericiliyi daha sərt tələblərin tətbiqini qadağan edirsə, maliyyə qrupları (holdinqlər) risklərin idarə edilməsi məqsədilə tədbirlər görməli və bu barədə nəzarət orqanına məlumat verməlidirlər.

Maliyyə monitorinqi orqanı daxili nəzarət proqramının cavab verməli olduğu minimum tələbləri müəyyən edir. Nəzarət orqanları nəzarət etdikləri öhdəlik daşıyan şəxslərə münasibətdə maliyyə monitorinqi orqanının müəyyən etdiyi minimum tələblərdən əlavə tələblər müəyyən edə bilər.

Auditor təşkilatları daxili nəzarət proqramlarını maliyyə monitorinqi orqanının tələblərinə uyğun olaraq hazırlamalıdırlar.

“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun auditorlar qarşısında yaratdığı öhdəliklərin yerinə yetirilməsi istiqamətində auditorların fəaliyyətlərinə Azərbaycan Respublikası Auditorlar Palatasının öz səlahiyyətləri çərçivəsində nəzarət edilən zaman nəzərə alınmalıdır ki, auditor xidməti göstərən şəxslər tərəfindən nəzərə alınmalı olan çirkli pulların yuyulmasının ehtimal olunmasını şərtləndirən əsas əlamətlər aşağıdakılardır:

- şəxsin kimliyini müəyyən etmək mümkün olmur;
- icazə verilməyən və ya səhv qeydə alınmış sazişlər;
- keyfiyyətsiz auditor yoxlaması;
- böyük həcmli sazişlər, xüsusilə, dövriyyə vəsaitlərinin mübadiləsində və ya birbaşa pul köçürmələri üçün;
- bazar qiymətlərindən kifayət qədər fərqlənən (aşağı və ya yuxarı) əmtəə və valyutanın alınması;
- əlaqəli firmalar üçün ayrı-ayrı məsləhət və auditor firmalarından istifadə olunması;
- heç bir biznes məqsədi olmayan kompaniya və trestlərin yaradılması;
- müştərinin sığorta ehtiyacları ilə ziddiyyət təşkil edən qiymətə sığorta siyasəti;
- müştərinin qanuni biznesi və ya fəaliyyəti ilə ziddiyyət təşkil edən müqavilələr;
- irihəcmli nağd investisiyalar;

- məqsədi aşkar olmayan investisiyaların alınıb-satılması;
- zəruri olmayan xarici ezamiyyətlər;
- böyük həcmli komisyon haqlarının ödənilməsi;
- təyinatsız xidmətə görə məsləhətçilərə, əlaqəli tərəfə, işçilərə və ya hökumət işçilərinə böyük həcmli ödənişlərin edilməsi.

Çirkli pulların yuyulmasında aşağıdakı kassa əməliyyatlarından istifadə oluna bilər:
- aşağı və ya yuxarı nominalla böyük həcmli banknotların mübadiləsi;
- mühasibatda uçota alınmadan böyük həcmdə pulun müştərinin hesabına köçürülməsi;
- çeklər vasitəsilə böyük məbləğin ödənilməsi;
- təsadüfi alıcıların köməyi ilə böyük həcmdə qiymətli metalların alınıb-satılması;
- təsadüfi alıcıların köməyi ilə böyük həcmdə bank kredit kartının alınması;
- qeyri-qanuni xarici ödəmələr.

Nəzarət həyata keçirilənən zaman auditorlar tərəfindən məlumatların maliyyə monitorinqi orqanına təqdim olunmasına diqqət yetirilməlidir.

Auditor xidməti göstərən şəxslər aşağıdakı məlumatları maliyyə monitorinqi orqanı tərəfindən müəyyən edilmiş qaydada ona təqdim etməlidirlər:
- əməliyyatın növü;
- əməliyyatın həyata keçirilmə tarixi;
- həyata keçirilən əməliyyatın məbləği;
- əməliyyatı həyata keçirən hüquqi və ya fiziki şəxsin eyniləşdirilməsi üçün maliyyə institutları tərəfindən alınmış zəruri məlumatlar;
- benefisiar haqqında məlumatlar;
- əməliyyatın mahiyyətini, məqsədini, o cümlədən xronologiyasını təsvir edən məlumatlar;
- əməliyyatın şübhəli olmasını şərtləndirən əsaslar;
- Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyəti qətnamələrinə, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada siyahısı təsdiq edilmiş şəxslərlə əməliyyatlar.

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə davamlı olaraq riayət etməyən dövlətlərin fiziki və ya hüquqi şəxsləri ilə işgüzar münasibətlərə və əməliyyatlara dair məhdudiyyətlər və ya xüsusi tələblər müəyyən edilə bilər.

**Eyni zamanda, auditorlar aşağıdakı hallarda müştəri uyğunluğu tədbirləri (müştərinin və benefisiarın eyniləşdirilməsi) görmələrinə diqqət yetirilməlidir:**

1. işgüzar münasibətlərin yaradılmasından əvvəl;
2. maliyyə vəsaitlərinin elektron köçürülməsi və virtual aktivlərlə əməliyyatların aparılmasına dair Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq maliyyə vəsaitlərinin birdəfəlik elektron köçürülməsindən və virtual aktivlərlə aparılan birdəfəlik əməliyyatlardan əvvəl;
3. iyirmi min manat məbləğində (bundan sonra – limit) və ya limitdən artıq məbləğdə həyata keçirilməsi gözlənilən hər hansı birdəfəlik əməliyyatdan əvvəl (bu hala, həmçinin limit çərçivəsində həyata keçirilərək bir-biri ilə əlaqəsi olan və ümumi məbləği limitdən artıq olan bir neçə əməliyyat aiddir);
4. məbləğindən asılı olmayaraq, hesab açılmadan həyata keçirilməsi gözlənilən pul köçürməsindən əvvəl;
5. əmlakın cinayət yolu ilə əldə edilməsinə və ya terrorçuluğun maliyyələşdirilməsində istifadə edilməsinə şübhə yaradan bütün hallarda;
6. əldə edilmiş məlumat və sənədlərin doğruluğuna və ya uyğunluğuna dair şübhələr olduqda;

7. Əməliyyatın ümumi məbləği əməliyyatın icra olunmasından əvvəl məlum deyilsə, müştərinin və benefisiarın eyniləşdirilməsi əməliyyatın məbləğinin limitdən artıq olduğu müəyyənləşdiyi anda həyata keçirilir;

8. Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin eyniləşdirilməsi şəxsiyyəti təsdiq edən sənəd və müvafiq vergi orqanı tərəfindən verilmiş şəhadətnamə əsasında aparılır;

9. Həyata keçirilmiş əməliyyatın müştəri, onun sahibkarlıq fəaliyyəti və vəsaitlərinin mənbəyi barədə məlumatlara uyğun gəlməsinin təmin edilməsi məqsədilə həmin əməliyyatın təhlili.

Auditor xidməti göstərən şəxslər bütün mürəkkəb, irihəcmli qeyri-adi, habelə açıq-aşkar iqtisadi və ya qanuni məqsədi olmayan əməliyyatların təyinatını və mahiyyətini aydınlaşdırmalı və bununla əlaqədar yazılı təhlil hesabatı tərtib etməlidirlər. Zərurət yarandığı təqdirdə hesabat qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə monitorinqi orqanına və ya nəzarət orqanlarına təqdim edilməlidir.

Auditor xidməti göstərən şəxslərin nəzərə alması və izləməsi zəruri olan faktorlar aşağıdakılardır:

**Kredit təşkilatları, lizinq xidmətləri göstərən kredit təşkilatları, pul vəsaitlərinin köçürülməsi ilə məşğul olan poçt xidməti göstərən müəssisələr və lombardlar vasitəsilə əməliyyatlar zamanı yaranan faktorlar:**

- açılmış və uzun müddət ərzində istifadə olunmayan hesablardan həyata keçirilən əməliyyatların həcminin gözlənilmədən əhəmiyyətli dərəcədə artması;
- müştərinin hesabdan birdəfəlik əməliyyatların aparılması üçün istifadə etməklə sonradan bağlanılması üçün müraciət etməsi;
- ödənişin təyinatında onun həyata keçirilməsi üçün əsasın göstərilməməsi şərtilə xaricə, yaxud xaricdən köçürmələr;
- ölkə xaricindən fiziki şəxsin adına (hesab açmadan) və ya hesabına müntəzəm olaraq vəsaitlərin daxil olması (yaxın qohumlardan daxil olan vəsaitlər istisna olmaqla);
- bir neçə hesabda yerləşdirilmiş vəsaitlərin bir hesaba, sonra isə ölkə daxilindəki və ya ölkə xaricindəki digər hesaba köçürülməsi;
- qeydiyyatdan keçmiş digər təsərrüfat subyektlərinin adlarına oxşar adlarda hesabların açılması;
- müştəri ilə aşkar iqtisadi əlaqələrə və inandırıcı səbəblərə malik olmayan üçüncü tərəfin zəmanət verməsi;
- əsas fəaliyyəti üçün nağdsız formada hesablaşmaların xarakterik olduğu halda, müştərinin hesabına daxil olan nağd pul vəsaitlərinin həcminin əhəmiyyətli dərəcədə artması;
- müştərinin əmanətin məbləği haqqında ümumi təsəvvürə malik olması;
- müştərinin əmanət hesabına üçüncü şəxslər tərəfindən vəsaitlərin yerləşdirilməsi;
- hüquqi şəxsi təmsil edən şəxsin həmin hüquqi şəxs barədə ümumi məlumata malik olmaması, o cümlədən hüquqi şəxsin fəaliyyət xarakterini, onun yerləşdiyi yeri və ya əlaqə məlumatlarını bilməməsi;
- alınmış iri kreditin gözlənilməz şəkildə vəsaitin mənbəyi bilinmədən vaxtından əvvəl qaytarılması;
- bir qayda olaraq, passiv təsərrüfat dövriyyəsinə malik hüquqi şəxsin və ya yeni yaradılmış hüquqi şəxsin böyük xərclər üçün vəsait əldə etməsi məqsədilə qeyri-adi dərəcədə böyük dövriyyə və ya şişirdilmiş mənfəət haqqında məlumatlar təqdim etməsi;
- yeni müştəri üçün iri hesab edilən və ya işgüzar münasibətlərin mövcud olduğu müştərinin adi fəaliyyətinə uyğun olmayan iri məbləğlərdə valyuta mübadiləsinin və ya bank əməliyyatlarının həyata keçirilməsi, yaxud da buna cəhd edilməsi;
- rezident və ya qeyri-rezident kredit təşkilatının emissiya etdiyi çeklərin müntəzəm olaraq inkasso olunması üçün təqdim edilməsi;

- sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan və müştəri ilə müqavilə münasibətlərinə malik olmayan şəxsdən müştərinin bank hesabına «borc», «kredit», «ssuda», «qabaqcadan ödəniş» və ya «qrant» təyinatı ilə pul vəsaitlərinin köçürülməsi;

- müştərinin «kredit üzrə ödəniş», «borc üzrə ödəniş» və ya «növbəti ödəniş» təyinatı ilə müqavilə münasibətlərində olmadığı fiziki və ya hüquqi şəxslərə pul vəsaitlərini köçürməsi;

- kifayət qədər izah olmadan bir neçə şəxsin bir hesaba ödəniş etməsi;

- müştərinin plastik kartlardan istifadə etməklə etibarlılığı şübhə doğuran internet səhifələri vasitəsilə pul vəsaitlərini köçürməsi və ya qəbul etməsi;

- müştərinin gün ərzində ümumilikdə 5000 manat ekvivalentinə bərabər və ya onu keçən məbləğdə vəsaiti bankomat vasitəsilə köçürməsi (kredit ödənişi istisna olmaqla);

- nağd xarici valyutanın mənbəyi haqqında heç bir izahat verilməməsi və ya verilən məlumatın həqiqətə uyğun olmaması;

- bir şəxsin müxtəlif pul köcürmə sistemləri vasitəsilə eynitipli köçürmələr etməsi;

- hüquqi şəxs tərəfindən sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan fiziki şəxsə 3000 manat ekvivalentinə bərabər və ya onu keçən, həmçinin, məbləğindən asılı olmayaraq mütəmadi şəkildə vəsaitin köçürülməsi;

- fiziki şəxslər tərəfindən qiymətli kağızlarla (səhmlər, istiqrazlar, veksellər və s.) əməliyyatlar üzrə müntəzəm beynəlxalq hesablaşmaların həyata keçirilməsi;

- malların alqı-satqısına (işlərin görülməsinə, xidmətlərin göstərilməsinə) dair müqavilənin tələblərinin icra edilməməsinə görə rezident tərəfindən qeyri-rezidentə təchiz olunmamış malların (görülməmiş işlərin, göstərilməmiş xidmətlərin) ümumi dəyərinin 10 faizindən artıq məbləğdə cərimənin (dəbbə pulunun) ödənilməsi;

- lizinq müqaviləsi əsasında lizinq alan ilə lizinq predmetini satanın eyni şəxs olması;

- qabaqcadan razılaşdırılmış əməliyyatın şərtlərinə dəyişikliklərin daxil edilməsi.

**Sığorta və təkrarsığorta əməliyyatları zamanı yaranan faktorlar:**

- müqavilənin daha səmərəli şərtləri ilə maraqlanmadan, müştərinin həmin müqaviləyə vaxtından əvvəl xitam verilməsinə dair şərtlər barəsində qeyri-adi marağı nümayiş etdirməsi;

- sığortalının son nəticədə onun üçün maddi baxımdan əlverişli olub-olmamasının fərqinə varmadan, sığorta müqaviləsini vaxtından əvvəl dayandırması;

- şəxsin sığorta risklərinə və sığorta müqaviləsinin digər şərtlərinə mütənasib olmayan sığorta məbləğləri ilə müşayiət olunan sığorta etdirmək təklifi ilə çıxış etməsi;

- şəxsin sığorta etdirmək üzrə maliyyə imkanlarına aşkar şəkildə mütənasib olmayan məbləğdə sığorta haqqının nağd və (və ya) birdəfəlik ödənilməsi;

- müqavilənin qüvvədə olduğu müddətdə sığortalıya birbaşa aidiyyəti olmayan şəxsin faydalanan şəxs kimi təyin edilməsi;

- sığortalının və ya sığorta olunan tərəfindən sığorta müqaviləsi üzrə faydalanan şəxs hesab edilməyən digər şəxsə sığorta ödənişinin verilməsi təklifi ilə çıxış etməsi;

- şəxsin 3 ildən az müddətə həyat sığortası üzrə müqavilə bağlamaq təklifi ilə çıxış etməsi;

- müştərinin iri məbləğdə sığorta haqqı ödənilməklə bağlanılmış sığorta müqaviləsinin qüvvəyə mindiyi tarixdən keçən qısa müddət ərzində həmin müqaviləyə xitam verməklə, sığorta haqqının qaytarılan hissəsinin nağd olaraq üçüncü şəxsə ödənilməsini tələb etməsi;

- həyat sığortası müqaviləsinin bağlanmasından sonra nağd və ya çek formasında geri qaytarılması üçün həmin müqaviləyə xitam verilməsi barədə müraciət olunması;

- sığortalının gözlənilmədən həyat sığortası üzrə aylıq sığorta ödənişləri üsulunun illik sığorta ödənişləri üsuluna və ya birdəfəlik sığorta ödənişi üsuluna dəyişməsi təklifi ilə çıxış etməsi;

- sığorta müqaviləsinin qüvvədə olduğu müddətdə sığortalının sığorta məbləğinin iri həcmdə artırılması təklifi ilə çıxış etməsi.

**Qiymətli kağızlarla əməliyyatlar zamanı yaranan faktorlar:**

- vəkil edilmiş şəxsin həyata keçirdiyi əməliyyatlarda benefisiarın və ya müştərinin adını eyniləşdirmək istəməməsi;

- müştərinin öz hesabından digər hesaba qiymətli kağızları və ya pul vəsaitlərini köçürməsi;

- müştərinin broker hesabını vəsait saxlamaq məqsədilə istifadə etməsi və bu vəsaitlə uzun müddət hər hansı qiymətli kağızın ticarətini həyata keçirməməsi;

- eyni şərtlərlə qiymətli kağızların alışı və satışı istiqamətində tapşırıqlar verilərək ticarət təxəyyülünün yaradılması;

- qısa müddət ərzində bir neçə müştərinin eyni qiymətli kağızların alqı-satqısını həyata keçirmək məqsədilə hesab açması;

- institusional investorun qeyri-müəyyən üçüncü şəxslər adından 20000 manatdan artıq həcmdə imtiyazlı və ya kiçik nominallı səhmləri birjadankənar yollarla alması;

- nəzarət orqanları tərəfindən qeyri-qanuni fəaliyyətlə məşğul olmaqla bağlı tənbeh tədbirləri və ya sanksiyalar tətbiq olunmuş şəxslərin ticarət əqdləri bağlaması;

- maliyyə institutlarının əməkdaşları və ya onların yaxın qohumları tərəfindən naməlum şəxslərin xeyrinə əməliyyatlar aparılması;

- bir-biri ilə hər hansı əlaqəsi olmayan şəxslərin pul vəsaitlərinin eyni hesaba köçürülməsini tələb etməsi;

- investorun qısa müddət ərzində investisiya fondunun paylarını (səhmlərini) alıb geri satması və bunun üçün heç bir aydın məqsədinin olmaması;

- ölkə xaricində yerləşən qiymətli kağızlar bazarının tənzimlənməyən iştirakçıları tərəfindən, üçüncü şəxslərin adından çıxış edərək, investisiya fondunun payları (səhmləri) ilə bağlı əqdlər bağlanması.

**Lotereya təşkilatçılarına dair faktorlar:**

- şəxsin əldə etdiyi uduşları digər şəxsin bank hesabına daxil etməsini xahiş etməsi və ya digər şəxsin uduşunu nağd pula satın alması;

- eyni bir şəxsin il ərzində iki dəfədən artıq 10000 manata bərabər və ya ondan yuxarı məbləğdə uduşlar udması;

- şəxsin üçüncü şəxsin adına udulmuş məbləğ haqqında yazılı arayış tələb etməsi.

**Qeyri-hökumət təşkilatlarına və ya dini təşkilatlara dair faktorlar:**

Aşağıdakı əməliyyatlar barədə məlumat və sənədlər məbləğindən və ya şübhəlilik əsaslarının mövcud olub-olmamasından asılı olmayaraq öhdəlik daşıyan şəxslər, habelə auditor xidməti göstərən şəxslər tərəfindən maliyyə monitorinqi orqanına təqdim olunur:

- xarici dövlətlərin siyasi nüfuzlu şəxsləri, onların yaxın qohumları və ya yaxın münasibətdə olduğu şəxslər tərəfindən həyata keçirilən istənilən əməliyyatlar;

- "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sanksiya tətbiq edilən fiziki şəxslərin və qurumların aktivləri ilə əməliyyatlar;

- Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən dini qurumların, qeyri-hökumət təşkilatlarının, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin bank hesabları üzrə əməliyyatlar;

- qeyri-hökumət təşkilatının və ya dini təşkilatın hesabına onun məqsədlərinə uyğun gəlməyən təyinatla pul vəsaitlərinin daxil olması;

- terrorçuluq fəaliyyətində iştirakı və ya belə fəaliyyətlə əlaqəli olması ehtimal edilən şəxsin donor qismində çıxış edərək qrant təklif etməsi.

## IV. Yoxlama

Yoxlamalar planlı və plandankənar qaydada həyata keçirilə bilər.

Planlı yoxlamalar əvvəlcədən müəyyən edilmiş plan əsasında, plandankənar yoxlamalar isə "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun auditorlar qarşısında yaratdığı öhdəliklərin yerinə yetirilməsi hallarının pozulması zamanı həyata keçirilən yoxlamalardır.

Planlı yoxlamalar ildə iki dəfədən çox olmamaq şərtilə səlahiyyətli orqan (Auditorlar Palatasının əməkdaşları və üzvləri) tərəfindən hər ilin əvvəlində təsdiq olunan plan üzrə həyata keçirilir.

Yoxlama 10 gündən artıq davam edə bilməz. Yoxlama həyata keçirən şəxsdən asılı olmayan səbəblərdən yoxlamanı başa çatdırmaq mümkün olmadıqda, yoxlama müddəti səlahiyyətli orqanın rəhbərinin qərarı ilə 30 günə qədər artırıla bilər.

## V. Tövsiyələr

1. Kredit təşkilatlarının, lotereya təşkilatçılarının, qeyri-hökumət təşkilatlarının, sığorta şirkətlərinin, sığorta və təkrarsığorta üzrə broker təşkilatlarının və sığorta agentlərinin, qiymətli kağızlar bazarının peşəkar iştirakçıları olan brokerlərin, qiymətli kağızların idarə olunması üzrə peşəkar fəaliyyəti həyata keçirən və digər şəxslərin maliyyə hesabatlarının auditi zamanı auditorların nəzərə alması və izləməsi zəruri olan faktorlara xüsusi diqqət yetirilsin;
2. Həmin faktorların hər biri ayrı-ayrılıqda diqqətlə öyrənilsin və təhlil edilsin;
3. Göstərilən faktorlar auditorun mülahizələrində yüksək risk yaradan hallar kimi qiymətləndirilsin;
4. Aparılmış auditlərin keyfiyyətinə nəzarət işi həyata keçirilərkən çirkli pulların yuyulması ilə bağlı faktorların auditorlar tərəfindən aşkar olunmasının vəziyyəti yoxlanılsın və bu barədə yoxlama aktında müvafiq məlumatlar əks etdirilsin;
5. Auditor xidməti göstərən şəxslər tərəfindən “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə ciddi riayət olunsun.


**METODİK GÖSTƏRİŞİ HAZIRLAYANLAR:**

**Elnur İBRAHİMOV - Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi**

**Nəcəf TALIBOV - Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri**

**Bəhruzə QASIMOVA - Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəis müavini**